# Faydalı və səmərəli

## COP29 Azərbaycan üçün yeni imkanlar yaradır

COP29-un Azərbaycanda keçirilməsinin olduqca vacib əsasları var və bu qərarın verilməsində ölkəmizin öz inkişafında iqlim amillərinə diqqət yetirməsi mühüm əhəmiyyət kəsb edib. Belə ki, respublikamız "yaşıl enerji"yə keçid etməklə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinə böyük töhfələr verir. Məlum olduğu kimi, "yaşıl enerji" istehsalı ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsində, ekoloji çirklənmənin qarşısının alınması və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Azərbaycan ənənəvi enerjinin əsas ünvanlarından biri kimi tanınsa da, alternativ və bərpaolunan enerjiyə keçidi prioritet məqsədlərdən biri elan edib. Təsadüfi deyil ki, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Son illərdə isə Azərbaycan "yaşıl enerji"yə keçidi daha da sürətləndirmək üçün bu istiqamətdə investisiyalarını əhəmiyyətli dərəcədə artırıb. O cümlədən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilməsi, su-elektrik stansiyalarının yaradılması göstərir ki, ətraf mühitin qorunması prioritetdir.

→ 8



**Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) cəmi bir neçə ay qalır. Noyabr ayında keçiriləcək bu mötəbər beynəlxalq tədbir diqqəti iqlim məsələlərinə yönəltməklə yanaşı, həm də Azərbaycanı bir daha dünyaya tanıdacaq, respublikamızın inkişaf nümunələrinin möhtəşəm təqdimatına çevriləcək.**

# Faydalı və səmərəli



## COP29 Azərbaycan üçün yeni imkanlar yaradır

### Azərbaycan nümunəsi

Öncə onu qeyd edək ki, Azərbaycan uzun illərdir ki, mötəbər qlobal tədbirlərin ünvanı, mərkəzi kimi tanınır. İndiyədək Bakıda və respublikamızın regionlarında çoxsaylı siyasi, iqtisadi tədbirlər, idman yarışları keçirilib. Bu tədbirlərin hər birində dünya Azərbaycanın nümunəvi evsahibliyinə şahidlik edib. Başqa cür desək, respublikamız qlobal tədbirlərə evsahibliyi ilə yeni nümunələr yaradıb.

Ən mühümü həm də odur ki, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər hər zaman sülhə, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa böyük töhfələr verib. Buna görə respublikamızın evsahibliyi etdiyi tədbirlər dünyada mühüm sülh və tərəfdaşlıq platformaları kimi qəbul olunur. Bütün bunların nəticəsi kimi Azərbaycan uzun müddətdir ki, aktual qlobal problemlərin həllində aktiv iştirak edən ölkə kimi tanınır.

Mötəbər tədbirlərə evsahibliyi etmək həm də dövlətin qlobal nüfuzundan xəbər verir. Hər bir dövlətdə beynəlxalq tədbir keçirmək mümkündür. Lakin tədbirdən tədbirə də fərq var. Bu baxımdan nəzər yetirsək görərik ki, indiyədək respublikamızda təşkil olunan tədbirlər öz nüfuzuna və çəkisinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər. Hamı bilir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı dünyanın ən mötəbər tədbirlərindən biridir. COP29-un Azərbaycanda keçirilməsi barədə qərar isə həm də ölkəmizə olan yüksək beynəlxalq etimadın növbəti nümunəsidir.

### "Yaşıl enerji"yə keçid ölkəmizin prioritetlərindən biridir

Ümumiyyətlə isə COP29-un Azərbaycanda keçirilməsinin olduqca vacib əsasları var və bu qərarın verilməsində ölkəmizin öz inkişafında iqlim amillərinə diqqət yetirməsi mühüm əhəmiyyət kəsb edib. Belə ki, respublikamız "yaşıl enerji"yə keçid etməklə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinə böyük töhfələr verir. Məlum olduğu kimi, "yaşıl enerji" istehsalı ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsində, ekoloji çirklənmənin qarşısının alınması və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Azərbaycan ənənəvi enerjinin əsas ünvanlarından biri kimi tanınsa da, alternativ və bərpaolunan enerjiyə keçidi prioritet məqsədlərdən biri elan edib. Təsadüfi deyil ki, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən olunub. Son illərdə isə Azərbaycan "yaşıl enerji"yə keçidi daha da sürətləndirmək üçün bu istiqamətdə investisiyalarını əhəmiyyətli dərəcədə artırıb. O cümlədən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilməsi, su-elektrik stansiyalarının yaradılması göstərir ki, ətraf mühitin qorunması prioritetdir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan iqlim dəyişmələrinə qarşı qlobal mübarizənin önündədir. COP29-un Azərbaycanda keçirilməsində də bu amil və ən əsası Azərbaycanın özünün qlobal nüfuzu əsas rolu oynayıb.

Hazırda COP29-la bağlı hazırlıq işləri davam edir. Bu tədbir iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması ilə bağlı qlobal mübarizəyə yeni töhfə və təkan verəcək.

Eyni zamanda COP29 respublikamız üçün yeni imkanlar deməkdir. Qeyd etdiyimiz kimi, Azərbaycanda bu istiqamətdə yönəldilən investisiyalar əhəmiyyətli dərəcədə artıb. Bu baxımdan, COP29 çərçivəsində təqdim olunacaq layihələr yeni investisiyaların cəlbi baxımından respublikamız üçün faydalı olacaq və böyük dividendlər gətirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.1, 8.